# TƏCİLİ HƏRƏKƏT

## HƏBS EDİLMİŞ AKADEMİKİN SƏHHƏTİ PİSLƏŞİB

**Qubad İbadoğlu tanınmış siyasi iqtisadçı və vətəndaş fəalıdır. O, 2023-cü il iyulun 23-də mütəşəkkil dəstə tərəfindən saxta pulların hazırlanması, əldə edilməsi və ya satışı ilə bağlı uydurma ittihamlarla saxlanılıb. Bundan sonra, hakimiyyət ona qarşı "dini ekstremizm" ittihamlarını da irəli sürüb. Onun həbsi və təqibi, belə görünür, hökuməti tənqid etməsinə, siyasi və vətəndaş fəaliyyətinə görə qisasdır. Bu fəaliyyətinin son nümunəsi onun Azərbaycan vətəndaşlarından xaricdə antikorrupsiya qanunvericiliyinə uyğun müsadirə olunmuş aktivlərlə azərbaycanlı tələbələrin nəfinə maliyyələşdirilməsi nəzərdə tutulan fondun yaradılmasına dəstəyi olub. Qubad İbadoğlunun səhhəti ilə bağlı ciddi problemləri var və məhkəməyə qədər həbsdə olduğu müddətdə onun həyatı təhlükədədir.**

### HƏRƏKƏTƏ KEÇ: ÖZ SÖZLƏRİNLƏ MƏKTUB YAZ VƏ YA BU NÜMUNƏVİ MƏKTUBDAN İSTİFADƏ ET

***Azərbaycan Prezidenti***
*İlham Əliyev*
*Azərbaycan Respublikası*
*Bakı, AZ1066*
*İstiqlaliyyət küçəsi 19*
*Prezident Sarayı*
*Email: office@pa.gov.az*

*Hörmətli Prezident Əliyev,*

*Mən sizə yazaraq, saxta pulların satışı və dini ekstremizm ilə bağlı qondarma ittihamlarla Kürdəxanı İstintaq Təcridxanasında saxlanılan **Qubad İbadoğlunun** dərhal azad edilməsini tələb edirəm. Şübhəsiz ki, siz onun görkəmli elmi və siyasi fəaliyyətindən və hökuməti tənqidlərindən xəbərdarsınız. Onun həbsi və təqibi bu fəalliyyətlərinə görə intiqam tədbirləridir. O, dərhal azad edilməlidir.*

*İyulun 23-də, Qubad İbadoğlu və onun həyat yoldaşı İradə Bayramova içində olduqları maşın nömrə nişanı olmayan avtomobillə vurulduqdan sonra mülki geyimli polis əməkdaşları tərəfindən qanunsuz olaraq saxlanıblar. İradə Bayramova bir müddət sonra ittiham verilmədən buraxılıb, lakin Qubad İbadoğlu İyulun 24-də Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi tərəfindən mütəşəkkil dəstə tərəfindən saxta pul hazırlama, əldə etmə və ya satma ittihamı ilə həbsdə saxlanıb (Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 204.3.1-ci maddəsi ilə maksimum 12 il azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur). Daha sonra ona qarşı "dini ekstremizm" ittihamı də irəli sürülüb. Noyabrın 16-da onun həbs qətimkan tədbiri müddəti üç ay uzadılıb.*

*Qubad İbadoğlunun səhhətində ciddi problemlər var, o habelə 2-ci tip şəkərli diabet və hipertoniya xəstəsidir. Ailəsinin dediyinə görə, onun səhhəti həbsdə əhəmiyyətli dərəcədə və davamlı olaraq pisləşib.*

*Avropa İnsan Hüquqları Məhkəməsi ona həmçinin 39-cu Qaydaya əsasən müvəqqəti tədbirlər elan edərək, Azərbaycan hakimiyyətindən Qubad İbadoğlunun "əlavə tibbi müayinələrdən keçməsini" və lazım gəldikdə onun "xüsusi tibbi müəssisəyə [xəstəxanaya] köçürülməsini" təmin etməsini xahiş edib.*

***Sizdən Qubad İbadoğlunun dərhal və qeyd-şərtsiz azadlığa buraxılmasını təmin edəcək addımlar atmağınızı xahiş edirəm. Sizdən həmçinin onun dərhal zəruri tibbi xidmətlə təmin olunmasını və işgəncə və digər pis rəftardan qorunmasını təmin etməyinizi xahiş edirəm. Sizdən qondarma ittihamlar və dəlillərə dair iddiaların effektiv araşdırılmasını təmin etməyinizi və sübutlarla əsaslandırıldığı halda, xüsusən ədaləti pozan bu hərəkətləri edən şəxləri məsuliyyətə cəlb etməyinizi xahiş edirəm. Mən sizdən həmçinin dinc tənqidin və fərqli düşüncənin hədəflənməsi üçün cinayət ədliyyə sistemindən sui-istifadəni dayandırmağınızı xahiş edirəm.***

*Hörmətlə,*

# ƏLAVƏ MƏLUMAT

Qubad İbadoğlu tanınmış azərbaycanlı iqtisadçı və siyasətçidir. O, 2014-cü ildə Azərbaycan hakimiyyəti tərəfindən əsassız olaraq siyasi partiya kimi qeydiyyata alınmayan Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədridir. O, London İqtisadiyyat Məktəbində aparıcı alim olub və dövlət maliyyəsinin idarə edilməsi, yaxşı idarəetmə və büdcə şəffaflığı ilə bağlı araşdırmalar aparan İqtisadi Tədqiqatlar Mərkəzinə rəhbərlik edib. Azərbaycan hakimiyyəti 2014-cü ildə Azərbaycanın vətəndaş cəmiyyətinə qarşı genişmiqyaslı məhdudiyyətlərin tərkib hissəsi olaraq İqtisadi Tədqiqatlar Mərkəzinin bank hesablarını dondurub və təşkilatı əsassız və məcburən bağlayıb. Qubad İbadoğlu 2017-ci ildə siyasi mühacirətə getsə də, 2023-cü ildə ailəsini görmək üçün Azərbaycana qayıdıb.

İyulun 23-ü, Qubad İbadoğlu və həyat yoldaşı Azərbaycan Demokratiya və Rifah Hərəkatının gənc fəalları ilə görüşmək üçün paytaxt Bakıdan 40 kilometr uzaqlıqda yerləşən Sumqayıt şəhərində maşınla gedərkən polis əməkdaşları tərəfindən həbs olunublar. Təxminən saat 1 radələrində dörd nişansız avtomobil onların maşınını müsahirəyə alıb, maşına qabaqdan və arxadan çarpmaqla dayanmağa məcbur edib. Onların qızı Jalə Bayramovanın bildirdiyinə görə, 20 nəfər mülki geyimli polis əməkdaşı "cütlüyü məcburən maşınlarından çıxarıb, onlara fiziki zorakılıq etdikdən sonra, məcburən ayrı-ayrı maşınlara mindirib, Daxili İşlər Nazirliyinin Bakıdakı Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparıblar. Axşam saat 7-də azad edildikdən sonra, İradə Bayramovanın qollarında, ayaqlarında və kürəyində çoxsaylı qançırlar olub. Qubad İbadoğlu onlara qarşı pis rəftarla bağlı şikayət ərizəsi yazıb.

Azərbaycan Daxili İşlər Nazirliyinin iyulun 23-də verdiyi rəsmi bəyanatına görə, Qubad İbadoğlu da daxil olmaqla bir neçə nəfərin həbsi, Türkiyə hakimiyyətinin "terror təşkilatı" elan etdiyi mühacir türk din xadimi Fətullah Gülən və onun tərəfdarlarına qarşı keçirilən əməliyyatın tərkib hissəsidir. Polisin İqtisadi Tədqiqatlar Mərkəzinin ofisindən bir çox digər əşya ilə yanaşı 40.000 ABŞ dollarını ələ keçirdiyi iddia olunur. Onlar Qubad İbadoğlu və İradə Bayramovanın evinə də basqın edərək İbadoğlunun qardaşı Vüqar Bayramovu da qısa bir müddət saxlayıblar. Avqustun 2-də Bakı Məhkəməsi İbadoğlunun evində qanunsuz axtarış aparılması ilə bağlı şikayətini təmin etməyib. Noyabrın 16-sı Azərbaycan hakimiyyəti onun həbs qətimkan tədbiri müddətinə üç ay əlavə edərək 2024-cü il, fevralın 24-nə qədər uzadıb.

Qubad İbadoğlunu səhhətindəki problemlərə ürək xəstəliyi, 2-ci tip diabet, böyrək xəstəlikləri, boyun damarlarının genişlənməsi, mədə xoraları və şiddətli bel ağrıları daxildir və səhhəti sürətlə pisləşməkdədir. Onun ailəsinin dediklərinə görə, o, qan şəkəri səviyyəsi və ümumi səhhəti kəskin şəkildə pisləşməsinə baxmayaraq, bunun səbəblərini müəyyən edib, onun üçün düzgün tibbi plan hazırlamaq niyyətilə müvafiq tibbi müayinələrdən keçməyib. Ona həmçinin, həbsindən əvvəl qəbul etdiyi bəzi dərmanlar verilmir, digər dərmanları isə qeyri-müntəzəm cədvəl üzrə verilir, bu da onun insult keçirmək riskini və ürək xəstəliyinin və həyatı üçün təhlükə yaradan digər problemlərin inkişafı təhlükəsini artırır.

2023-cü il, sentyabrın 14-ü, Avropa Parlamenti Qubad İbadoğlunun azadlığa buraxılmasına çağırış edən qətnamə qəbul edib. Avropa İnsan Hüquqları Məhkəməsi ona düzəlməz zərərin sürətlə yaxınlaşdığını tanıyaraq həmçinin 39-cu Qaydaya (ətraflı məlumat yuxarıdakı linkdədir) əsasən müvəqqəti tədbirlər elan edib.

Qubad İbadoğlu Azərbaycan və Avropa İttifaqı və Avropa Şurası daxil olmaqla onun beynəlxalq tərəfdaşlarını tənqid edən çoxsaylı elmi nəşrlərin və məqalələrin müəllifidir.

**ÜNVAÇININ ÜSTÜNLÜK VERDİYİ DİLLƏR:** azərbaycanca, ingiliscə, rusca
Siz həmçinin öz dilinizdə yaza bilərsiniz.

**XAHİŞ EDİRİK MÜMKÜN OLDUĞU QƏDƏR TEZ FƏAL OLUN –** 18 sentyabr 2023-ə qədər
Əgər müraciətinizi göstərilən tarixdən sonra göndərmək istəyirsinizsə, lütfən ölkənizdəki Amnesty İnternational şöbəsilə əlaqə saxlayın.

**ADI: QUBAD İBADOĞLU**

**ƏVVƏLKİ TƏCİLİ HƏRƏKƏTƏ LİNK:** https://www.amnesty.org/en/documents/eur55/7088/2023/en/